# AZƏRBAYCAN RESPUBLİKASI QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİNİN KOLLEGİYASININ QƏRARI

**№ 18**

**Bakı şəhəri** **“06” avqust 2020-ci il**

## Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının struktur bölmələrinin Əsasnamələrinin və strukturuna daxil olan regional bölmələrinin Nümunəvi Əsasnaməsinin təsdiq edilməsi barədə

“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 20-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin 13 noyabr 2017-ci il tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 5.5.3-cü və 5.11.5-ci yarımbəndlərini və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” 6 noyabr 2018-ci il tarixli 652 nömrəli Sərəncamını rəhbər tutaraq, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası

**QƏRARA ALIR:**

**1.** “Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida təhlükəsizliyi şöbəsinin Əsasnaməsi” təsdiq olunsun (*əlavə olunur*).

**2.** “Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida zəncirinə nəzarət ~~və regional bölmələrlə iş~~ şöbəsinin Əsasnaməsi” təsdiq olunsun (*əlavə olunur*).[1]

**3.** “Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qeydiyyat və *reyestrlərin aparılması* şöbəsinin Əsasnaməsi” təsdiq olunsun (*əlavə olunur*).[2]

**4.** “Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Maliyyə və təminat şöbəsinin Əsasnaməsi” təsdiq olunsun (*əlavə olunur*).

**5.** “Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Beynəlxalq əlaqələr və protokol şöbəsinin Əsasnaməsi” təsdiq olunsun (*əlavə olunur*).

**6.** "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsinin Əsasnaməsi" təsdiq olunsun (*əlavə olunur*).

**7.** "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsinin Əsasnaməsi" təsdiq edilsin (*əlavə olunur*).

**8.** "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Heyvan sağlamlığı *və bioloji təhlükəsizlik* şöbəsinin Əsasnaməsi" təsdiq edilsin (*əlavə olunur*).[3]

**9.** "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Bitki sağlamlığı *və bioloji təhlükəsizlik* şöbəsinin Əsasnaməsi" təsdiq edilsin (*əlavə olunur*).

**10.** "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Daxili nəzarət sektorunun Əsasnaməsi" təsdiq edilsin (*əlavə olunur*).

**11.** "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Strateji təhlil və planlaşdırma sektorunun Əsasnaməsi" təsdiq edilsin (*əlavə olunur*).

**12.** "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Satınalmalar sektorunun Əsasnaməsi" təsdiq edilsin (*əlavə olunur*).

**13.** "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin regional bölmələrinin nümunəvi Əsasnaməsi" təsdiq edilsin (*əlavə olunur*).

**14.** Hüquq, kadr və icraya nəzarət şöbəsinə (**İbrahim Babayev**) tapşırılsın:

**14.1.** Bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin;

**14.2.** Bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

**15.** Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının 27 aprel 2019-cu il tarixli 05 nömrəli Qərarının 3-cü bəndi ləğv edilsin.

**16.** Kollegiyanın məsul katibi **Asif Əbdüləzimov** bu Qərarın surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**17.** Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının 6 avqust 2020-ci il tarixli iclasının protokolu.

| | |
|---|---|
| **Kollegiyanın sədri** | **Qoşqar Təhməzli** |

*Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının 6 avqust 2020-ci il tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilib.*

**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin regional bölmələrinin nümunəvi**

**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

**1.1.** Bu Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"yə uyğun hazırlanmışdır və Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra ismin müvafiq hallarında – Agentlik) regional bölmələrinin (bundan sonra ismin müvafiq hallarında – Bölmə) əsas fəaliyyət istiqamətlərini, vəzifə və funksiyalarını, hüquqlarını, fəaliyyətinin təşkili qaydalarını müəyyən edir.

**1.2.** Bölmə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununu və digər qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"ni, digər normativ hüquqi aktları, Agentliyin Kollegiya qərarlarını, Agentliyin sədrinin (bundan sonra ismin müvafiq hallarında – Sədr) qərarlarını, əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

**1.3.** Bölmə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Agentlik rəhbərliyinin göstərişlərinə uyğun olaraq Agentliyin struktur bölmələri və tabeliyində olan qurumları, yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Bölmənin fəaliyyət istiqamətləri

**2.0.** Bölmə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

**2.0.1.** qida *və yem* məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin ilkin istehsalı, *istehsalı, emalı, dövriyyəsi, utilizasiyası və məhv edilməsi* daxil olmaqla qida zəncirinin bütün mərhələlərində qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarətini həyata keçirir;[99]

**2.0.2.** fitosanitar nəzarətində olan yüklərin idxalı zamanı həmin yüklərə idxal karantin icazəsinin verilməsini və qida *və yem* məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin idxalına nəzarəti həyata keçirir;[100]

**2.0.3.** qida *və yem* məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə riayət edilməsinə dövlət nəzarətini həyata keçirir;

**2.0.4.** *idxal sağlamlıq aktının, sağlamlıq,* baytarlıq və fitosanitar sertifikatlarının verilməsini həyata keçirir;[101]

*2.0.4-1. bitkilərin mühafizəsi üçün istifadə edilən kimyəvi vasitələrin və baytarlıq xidmətində tətbiq edilən dərman, bioloji preparatlar və baytarlıq ləvazimatlarının idxalı ilə bağlı rəy verilməsini həyata keçirir;*[102]

*2.0.5. inzibati ərazi vahidində fəaliyyət göstərən qida zənciri obyektlərinin (subyektlərinin) qeydiyyatını, təsdiqini və ya ləğvini, habelə Qanunun 25.1-ci maddəsində müəyyən edilmiş qeydiyyata alınmalı olan məhsulların qeydiyyatını və ya qeydiyyatdan imtina edilməsini həyata keçirir;*[103]

**2.0.6.** inzibati ərazi vahidində qida təhlükəsizliyi sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir;

**2.0.7.** qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Bölmənin vəzifələri

**3.0.** Bölmə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

**3.0.1.** qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti sahəsində inzibati ərazi vahidində mövcud vəziyyəti təhlil etmək, dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi barədə təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

**3.0.2.** inzibati ərazi vahidində digər icra hakimiyyəti orqanlarının qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti ilə bağlı fəaliyyətini əlaqələndirir;

**3.0.3.** Qanunla müəyyən edilmiş hallarda və qaydada qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti obyektlərində illik planlara uyğun olaraq planlı və ya plandankənar yoxlamalar və digər dövlət nəzarəti tədbirləri həyata keçirmək;

**3.0.4.** yoxlama tədbirləri zamanı qanunla müəyyən olunmuş hallarda və qaydada *qida məhsullarının minimum keyfiyyət, qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların* təhlükəsizlik göstəricilərinin qiymətləndirilməsi üçün məhsul nümunələrinin götürülməsini və akkreditasiya olunmuş laboratoriyalarda həmin nümunələrin vahid metodika əsasında qiymətləndirilməsini təmin etmək, aşkarlanmış pozuntuların aradan qaldırılması üçün göstərişlər vermək və qanunla nəzərdə tutulmuş digər tədbirləri həyata keçirmək;[104]

*3.0.4-1. inzibati ərazi vahidində qida zənciri subyektləri tərəfindən qida təhlükəsizliyinin təmin edilməsi ilə bağlı HACCP-a əsaslanan daxili nəzarət sistemlərinin tətbiqi vəziyyətini yoxlamaq, məhsulların izlənilməsi ilə bağlı sənədləri, habelə malik olduğu izləmə sistemi və prosedurları haqqında məlumatları həmin subyektlərdən tələb etmək;*[105]

**3.0.5.** aparılmış yoxlamalar zamanı aşkar olunmuş qanun pozuntularının aradan qaldırılması və (və ya) məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərarlar hazırlamaq, rəhbərliyə təqdim etmək və qəbul olunmuş qərarların icrası ilə bağlı tədbirləri həyata keçirmək;

*3.0.5-1. Agentliyin fəaliyyəti üzrə qəbul edilmiş inzibati tənbeh vermə haqqında qərarların icrası ilə bağlı zəruri tədbirlər həyata keçirmək və icra vəziyyəti barədə hesabatı aidiyyəti struktur bölmələrə təqdim etmək;*[106]

**3.0.6.** heyvanların və əhalinin sağlamlığı üçün təhlükəli olan xəstəliklərə tutulmuş heyvanların, onlardan alınan məhsulların və xammalın təhlükəlilik dərəcəsindən asılı olaraq götürülməsi, məhvedilməsi və ya götürülmədən məcburi zərərsizləşdirilməsi, emalı və ya təkrar emalı ilə bağlı qərarlar vermək;

**3.0.7.** xüsusi təhlükəli heyvan xəstəlikləri baş verdikdə xəstəliyin yayılma təhlükəsi olan zonalarda qanunla müəyyən edilmiş hallarda və qaydada *karantin və ya məhdudiyyət tədbirləri* görülməsini, heyvanların kəsilməsi və ya məhv edilməsi, heyvan mənşəli xammalın, baytarlıq preparatlarının, yem *məhsullarının* və yem əlavələrinin zərərsizləşdirilməsi və ya utilizasiya edilməsi haqqında icrası məcburi olan göstərişlərin icrasını həyata keçirmək;[107]

**3.0.8.** fitosanitar nəzarətində olan karantin obyektlərində və bitki karantini nəzarətində olan materiallarda zərərli orqanizmlərin vaxtında aşkarlanaraq materialların təcrid edilməsi, məhsulun tədqiqi nəticəsində təhlükəliliyi sübut edilmiş bitki, bitkiçilik məhsulları, pestisidlər, bioloji preparatlar, aqrokimyəvi maddələr və digər bitki mühafizə vasitələrinin götürülməsi, saxlanması, zərərsizləşdirilməsi, təkrar emal və ya məhv edilməsi üçün icrası məcburi olan göstərişlərin icrasını həyata keçirmək;

**3.0.9.** Agentliyin səlahiyyətlərinə aid edilmiş inzibati xətalar haqqında işlərə baxılması ilə bağlı hərəkətləri həyata keçirmək;

**3.0.10.** qida *və yem* məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə, o cümlədən müvafiq sahədə ticarət, ictimai iaşə, məişət və digər növ xidmət qaydalarına riayət olunmasına dövlət nəzarətini həyata keçirməsini təşkil etmək, bu sahədə qanun pozuntularının qarşısının

alınması və pozuntuya yol vermiş şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi məqsədi ilə tədbirləri həyata keçirmək;

*3.0.10-1. inzibati ərazi vahidində həyat və sağlamlığa təhlükə ehtimalı müəyyən olunduqda, lakin elmi qeyri-müəyyənlik davam etdikdə, daha ətraflı risk qiymətləndirilməsinin aparılması üçün əlavə elmi məlumatların əldə edilməsinə qədər Agentlik tərəfindən həyat və sağlamlığın qorunması məqsədilə risklərin idarə edilməsi üzrə qeyri-müəyyən subyektlər dairəsinə münasibətdə müvəqqəti tədbirlərin tətbiqini həyata keçirmək;*[108]

**3.0.11.** qida *və yem* məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının və qanuni mənafelərinin pozulmasına gətirib çıxaran və ya gətirib çıxara bilən hərəkətlərin qarşısının alınması üçün tədbirləri həyata keçirmək;

**3.0.12.** təhlükəli və kütləvi zəhərlənməyə (xəstəliklərə) səbəb olmuş, habelə bu cür hallara səbəb ola biləcəyinə əsaslı sübutlar olan, ölkədə istehsal edilən və ya ölkəyə idxal edilmiş qida məhsullarının dövriyyədən çıxarılması və qida təhlükəsizliyi baxımından yaranmış fövqəladə vəziyyətin aradan qaldırılması ilə bağlı aidiyyəti dövlət orqanları ilə birlikdə tədbirləri həyata keçirmək;

**3.0.13.** gömrük orqanları ilə birlikdə dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilmiş yüklər (mallar, məhsullar) üzərində baytarlıq, fitosanitar və qida təhlükəsizliyi nəzarəti ilə bağlı tədbirləri həyata keçirmək və idxal olunan yüklərə idxal karantin icazəsi, *idxal sağlamlıq aktı* vermək və ya verilməsindən imtina etmək;[109]

*3.0.13-1. qida və yem məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin ixracı zamanı aşkarlanmış uyğunsuzluqlara dair idxalçı ölkələrdən daxil olanbildirişlər (notifikasiyalar) ilə bağlı qanuna uyğun tədbirlər görmək;*

*3.0.13-2. bitkilərin mühafizəsi üçün istifadə edilən kimyəvi vasitələrin və baytarlıq xidmətində tətbiq edilən dərman, bioloji preparatlar və baytarlıq ləvazimatlarının idxalı ilə bağlı rəy verilməsini həyata keçirmək;*[110]

**3.0.14.** ixrac olunan qida *və yem* məhsullarına, baytarlıq və fitosanitar nəzarətdə olan yüklərə müvafiq olaraq *sağlamlıq*, baytarlıq və fitosanitar sertifikatların verilməsini həyata keçirmək;[111]

*3.0.14-1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq qida və yem məhsuluna, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlara, baytarlıq və fitosanitar nəzarətində olan yüklərə müvafiq olaraq idxal sağlamlıq aktı, sağlamlıq, baytarlıq və fitosanitar sertifikatlarının dublikatlarının verilməsini, həmin sənədlərin yenidən rəsmiləşdirilməsini, qüvvəsinin dayandırılmasını, bərpa və ləğv edilməsini həyata keçirmək.*[112]

**3.0.15.** baytarlıq və fitosanitar nəzarətində olan yüklərin ölkə daxilində hərəkəti üçün qanunvericiliklə nəzərdə tutulmuş sənədlərin verilməsini həyata keçirmək;

*3.0.16. Qanuna əsasən müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların geri çağırılması, yığışdırılması, Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudlarından kənara çıxarılması, utilizasiyası, məhv edilməsi və birbaşa təyinatı üzrə təkrar dövriyyəyə buraxılması barədə qanunla müəyyən edilmiş hallarda və qaydada qərar qəbul etmək və icrasına nəzarəti həyata keçirmək;*[113]

**3.0.17.** inzibati ərazi vahidində *qida zənciri obyektlərində* dezinfeksiya, dezinseksiya, deratizasiya, fumiqasiya işlərinə, həmçinin baytarlıq, fitosanitar və qida təhlükəsizliyi ilə bağlı digər tədbirlərin həyata keçirilməsinə nəzarət etmək;[114]

**3.0.18.** qida məhsullarının saxlanması və ya satışı zamanı mal qonşuluğunun və satılmış malların dəyişdirilməsi və ya geri çağırılması qaydalarının pozulmasına qarşı tədbirləri həyata keçirmək;

**3.0.19.** Ölkəyə idxal olunan *qida və yem məhsullarının* ölkənin gömrük sərhədindən keçirilərkən genetik modifikasiyaya məruz qalıb-qalmadığının, *o cümlədən qanuna uyğun olaraq genetik modifikasiya olunmuş orqanizmlər və yem məhsullarının qeydiyyatının olub-olmamasının* inzibati ərazi vahidi üzrə yoxlanmasını həyata keçirmək;[115]

**3.0.20.** qida zəncirinin müvafiq mərhələlərində işləyən şəxslərin işə qəbul olunmazdan əvvəl və işlədikləri müddət ərzində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə birlikdə müəyyən edilmiş qaydada və müddətdə məcburi tibbi müayinədən keçmələrinə, *habelə gigiyenik təlimlərə cəlb olunmalarına* nəzarəti həyata keçirmək;[116]

**3.0.21.** qida zəncirinin müvafiq mərhələlərində işləyən və çalışdıqları istehsalatın və ya gördükləri işin xüsusiyyətləri ilə əlaqədar olaraq yoluxucu və parazitar xəstəlikləri yaymaq təhlükəsi yaradan şəxslərin habelə sanitariya norma və qaydalarını, gigiyena normativlərini müntəzəm yerinə yetirməyən şəxslərin işdən kənarlaşdırılmasını tələb etmək;

**3.0.22.** aidiyyəti dövlət orqanları ilə birgə qanunla müəyyən edilmiş qaydada əhalini insan və heyvanlar üçün ümumi olan xəstəliklərdən qorunmasına nəzarəti həyata keçirmək;

*3.0.22-1. inzibati ərazi vahidində ictimai iaşə sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektləri və onların vəzifəli şəxsləri tərəfindən epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirmək;*[117]

*3.0.23. genetik modifikasiya olunmuş orqanizmlərin, qida və yem məhsullarının qanunsuz dövriyyəsinə qarşı qanunda nəzərdə tutulmuş tədbirlər görmək;*

*3.0.24. qida və yem məhsullarının qablaşdırılması və etiketlənməsi zamanı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarda nəzərdə tutulan tələblərin yerinə yetirilməsinə nəzarət etmək;*

*3.0.25. bioloji aktiv qida məhsullarının emalına, dövriyyəsinə, utilizasiyasına və məhv edilməsinə nəzarəti həyata keçirmək;*[118]

**3.0.26.** heyvan, heyvandarlıq məhsulları və xammal sahibləri tərəfindən Azərbaycan Respublikasının baytarlıq qanunvericiliyinə əməl edilməsinə nəzarəti həyata keçirmək;

**3.0.27.** heyvan kəsiminin baytarlıq qanunvericiliyinin tələblərinə uyğun həyata keçirilməsinə nəzarət etmək, baytarlıq normalarına cavab verən məhsulların sahibinə həmin məhsulların satışına icazə verən ekspertiza aktı təqdim etmək və ya məhsulun (ətin, heyvan və quş cəmdəklərinin, digər məhsulların) üzərində nişan qoyulmasını həyata keçirməkvə qanunsuz heyvan kəsiminin qarşısının alınması ilə bağlı tədbirləri həyata keçirmək;

**3.0.28.** baytarlıq preparatlarının, vitaminlərin, yem əlavələrinin, habelə mal-qaranın boy artımını sürətləndirən və məhsuldarlığını yüksəldən bioloji stimulyatorların və hormonların təhlükəsizliyinə, istehsalına, saxlanmasına, heyvandarlıqda tətbiqinə və dövriyyəsinə qanunla müəyyən edilmiş qaydada nəzarəti həyata keçirmək;

**3.0.29.** dövlət büdcəsi və qanunla qadağan edilməyən digər mənbələr hesabına alınmış baytarlıq və fitosanitar preparatlarının saxlanmasına, daşınmasına, dövriyyəsinə, istifadəsinə və keyfiyyətinə nəzarəti həyata keçirmək;

**3.0.30.** karantin obyekti olan bitki zərərvericilərinin, xəstəlik törədicilərinin və alaq bitkilərinin bölmənin əhatə etdiyi inzibati ərazi vahidinə daxil olmasının və ya yayılmasının qarşısının alınması ilə bağlı nəzarət tədbirlərini həyata keçirmək;

**3.0.31.** pestisidlərin, bioloji preparatların, aqrokimyəvi maddələrin və digər bitki mühafizə vasitələrinin istehsalına, saxlanmasına, satışına, tətbiqinə, idxalına və ixracına, həmçinin bütün növ bitkiçilik məhsullarında, *yem məhsullarında* və torpaqda qalıq miqdarına nəzarəti həyata keçirmək;[119]

**3.0.32.** Azərbaycan Respublikasına gətirilmiş və ölkədən aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışının keçirilməsini və laboratoriya *ekspertizasına cəlb olunmasını* həyata keçirmək;[120]

*3.0.33. inzibati ərazi vahidi üzrə qida zənciri obyektlərinin (subyektlərinin), habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin qeydiyyatını, qida zənciri obyektlərinin təsdiqini (o cümlədən müəyyən şərtlərlə təsdiqini) həyata keçirmək, Reyestrdən çıxarışlar vermək, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həmin sənədlərin dublikatlarını vermək, yenidən rəsmiləşdirilməsini, qüvvəsinin dayandırılmasını, bərpa edilməsini və ləğv edilməsini həyata keçirmək, qeydiyyata alınmasından və ya təsdiq edilməsindən imtina etmək, Reyestr məlumatlarına dəyişiklik etmək və bu barədə Agentliyin aidiyyəti struktur bölməsinə hər ay hesabat təqdim etmək;*[121]

*3.0.33-1 Qanunun 25.1-ci maddəsində müəyyən edilmiş qeydiyyata alınmalı olan məhsulların inzibati ərazi vahidi üzrə qeydiyyata alınması, qeydiyyata alınmış məhsulların qeydiyyatının dayandırılması, bərpa edilməsi, ləğvi və yenidən rəsmiləşdirilməsini, qeydiyyata alınmasından imtina edilməsini həyata keçirmək, Reyestr məlumatlarına dəyişiklik etmək və bu barədə Agentliyin aidiyyəti struktur bölməsinə hər ay hesabat təqdim etmək;*[122]

**3.0.34.** inzibati ərazi vahidi üzrə baytarlıq müfəttişləri tərəfindən baytarlıq uçotu və hesabatının aparılmasını və onların Agentliyin aidiyyəti struktur bölməsinə hər ay təqdim edilməsini təmin etmək;

**3.0.35.** Bölmənin baytarlıq müfəttişi tərəfindən inzibati ərazi vahidində heyvanların xüsusi təhlükəli xəstəliklərinin yayılması və ya yayılma təhlükəsi barədə Baş dövlət baytarlıq müfəttişinə məlumatın verilməsini təmin etmək;

~~**3.0.36.** inzibati ərazi vahidi üzrə dövlət reyestrinə daxil edilən qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin aparılmış qiymətləndirmələrin nəticələri əsasında qeydiyyatının ləğvi ilə bağlı Agentliyin aidiyyəti struktur bölməsinə təkliflər vermək;~~[123]

**3.0.37.** rəhbərliyin tapşırığı ilə hesabatlar, arayışlar və məlumatlar hazırlamaq;

**3.0.38.** rəhbərlik tərəfindən tapşırılmış vəzifələri yerinə yetirmək;

**3.0.39.** qanunvericiliklə müəyyən edilmiş qaydada vətəndaşların bölməyə daxil olmuş şifahi və yazılı müraciətlərinə vaxtında və ətraflı baxılmasını təmin etmək;

**3.0.40.** Bölmənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

**3.0.41.** aidiyyəti qurumlara müraciətlər hazırlamaq, sənədlərin toplanmasını və göndərilməsini həyata keçirmək;

**3.0.42.** Bölmənin fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir.

## 4. Bölmənin hüquqları

**4.0.** Bölmə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

**4.0.1.** Bölmənin fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

**4.0.2.** Bölmənin fəaliyyət sahələri və istiqamətləri üzrə təhlillər və araşdırmalar aparmaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, rəy və təkliflər vermək;

**4.0.3.** qida təhlükəsizliyi sahəsində dövlət nəzarətini həyata keçirmək məqsədi ilə tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq hüquqi və fiziki şəxslərin *ilkin istehsal, istehsal, emal, dövriyyə, məhv edilmə və utilizasiya* sahələrinə qanunvericiliyə uyğun olaraq daxil olmaq, nəzarət sahəsinə aid məlumat və sənədləri almaq, satılan və ya satılması nəzərdə tutulan *qida və yem məhsullarının* müayinəsini həyata keçirmək;[124]

**4.0.4.** nəzarət tədbirinin həyata keçirilməsi üçün mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq texniki vasitələrdən və avadanlıqlardan istifadə etmək;

**4.0.5.** bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar müvafiq məlumatları, sənədləri, arayışları almaq üçün Agentliyə müraciət etmək;

**4.0.6.** Agentlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Bölməni (Agentliyi) təmsil etmək, onların işində iştirak etmək;

**4.0.7.** fəaliyyət istiqamətlərinə uyğun olaraq Bölmənin əməkdaşlarının peşə hazırlığının və ixtisaslarının artırılması üçün Agentliyə müraciət etmək;

**4.0.8.** Bölmənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

**4.0.9 .** fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Regional bölmənin fəaliyyətinin təşkili

**5.1.** Bölmənin strukturu bölmənin vahid sistemini təşkil edir.

**5.2.** Bölmənin strukturu və əməkdaşlarının sayı sədr tərəfindən müəyyən və təsdiq edilir. Bölmə bilavasitə sədrə tabedir və onun qarşısında hesabat verir. Sədr tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla, heç kəs bölmənin fəaliyyətinə müdaxilə edə bilməz.

**5.3.** Bölmənin fəaliyyətinə Sədr tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (bundan sonra ismin müvafiq hallarında – rəis) rəhbərlik edir. rəis bölməyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

**5.4.** rəisin sədr tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini (müavinləri) *ola bilər*. rəis müavini rəis tərəfindən ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Rəis olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada rəis müavini və ya *Agentlik sədri* tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.[125]

**5.5.** Bölmənin digər əməkdaşları sədr tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

**5.6.** Rəis:

**5.6.1.** Bölmənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

**5.6.2.** Bölmənin struktur bölmələri və əməkdaşları arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək və icra intizamına riayət etmələrinə nəzarət edir;

**5.6.3.** Bölməyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

**5.6.4.** Bölmə üzrə Agentliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Agentliyin rəhbərliyinə təqdim edir,

**5.6.5.** Bölmənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Agentliyin rəhbərliyinə təqdimatlar verir;

**5.6.6.** Bölmənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Agentliyin digər strukturlarından məlumat və sənədləri alır;

**5.6.7.** Bölməyə daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

**5.6.8.** Bölmədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejiminə riayət edilməsini təmin edir;

**5.6.9.** Bölməni təmsil edir.

**5.7.** Bölmənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məsuliyyət daşıyırlar.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 31 avqust 2021-ci il tarixli **23** nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202108310023, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 sentyabr 2021-ci il)**
2. 14 mart 2023-cü il tarixli **32** nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202303140032, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 30 mart 2023-cü il)**
3. 24 iyun 2023-cü il tarixli **34** nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240034, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)**
4. 20 sentyabr 2023-cü il tarixli **36** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202309200036, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 oktyabr 2023-cü il)**
5. 2 noyabr 2023-cü il tarixli **38** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202311020038, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 17 noyabr 2023-cü il)**

6. 16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü il)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü il)** ilə 2-ci hissəsində "**və regional bölmələrlə iş**" sözləri çıxarılmışdır.

[2] 16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü il)** ilə 3-cü hissəsində "**sahibkarlarla iş**" sözləri "**reyestrlərin aparılması**" sözləri ilə əvəz edilmişdir.

[3] 16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü il)** ilə 8-ci hissəsində "**Heyvan sağlamlığı**" sözlərindən və 9-cu hissəsində "**Bitki sağlamlığı**" sözlərindən sonra "**və bioloji təhlükəsizlik**" sözləri əlavə edilmişdir.

[4] 16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü il)** ilə "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida təhlükəsizliyi şöbəsinin Əsasnaməsi"nin 2.0.1-ci yarımbənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~**2.0.1.** qida məhsullarının ilkin istehsalı, tədarükü, istehsalı, emalı, qablaşdırılması, saxlanması, daşınması və dövriyyəsi də (o cümlədən idxal-ixrac əməliyyatları) daxil olmaqla qida zəncirinin bütün mərhələlərində qida məhsullarının təhlükəsizliyinə dair dövlət siyasətinin və tənzimləməsinin həyata keçirilməsində iştirak edir;~~

[5] 16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü il)** ilə "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida təhlükəsizliyi şöbəsinin Əsasnaməsi"nin 2.0.2-ci yarımbənddə "**Azərbaycan Respublikasını**" sözləri "**Agentliyi**" sözü ilə əvəz edilmişdir.

[6] 16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü**

**il)** ilə "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida təhlükəsizliyi şöbəsinin Əsasnaməsi"nin 2.0.4-cü yarımbənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~**2.0.4.** qida məhsullarının istehlakçılarının hüquqlarının müdafiəsi ilə bağlı dövlət siyasətinin müəyyən edilməsində iştirak edir;~~

[7] 16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü il)** ilə "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida təhlükəsizliyi şöbəsinin Əsasnaməsi"nin 3.0.9-cu yarımbəndində "**bioloji fəallığa malik qida əlavələrinin istehsalına, idxalına, ixracına, satışına və dövriyyəsinə**" sözləri "**bioloji aktiv qida məhsullarının emalına, dövriyyəsinə, utilizasiyasına və məhv edilməsinə**" sözləri ilə əvəz edilmişdir.

[8] 16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü il)** ilə "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida təhlükəsizliyi şöbəsinin Əsasnamə"yə yeni məzmunda 3.0.10-1-3.0.10-3-cü yarımbəndlər əlavə olunmuşdur.

[9] 16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü il)** ilə "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida təhlükəsizliyi şöbəsinin Əsasnaməsi"nin 3.0.14-cü yarımbənddə "**qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlər**" sözləri "**qida zənciri subyektləri**" sözləri ilə əvəz edilmişdir.

[10] 16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü il)** ilə "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida təhlükəsizliyi şöbəsinin Əsasnamə"yə yeni məzmunda 3.0.14-1-ci yarımbənd əlavə olunmuşdur.

[11] 16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü il)** ilə "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida təhlükəsizliyi şöbəsinin Əsasnaməsi"nin 3.0.17-ci yarımbənd ləğv edilmişdir.

[12] 16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü il)** ilə "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida təhlükəsizliyi şöbəsinin Əsasnaməsi"nin 3.0.21-ci yarımbənddə "**qida məhsullarının istehsalı, qablaşdırılması, saxlanması, emalı**" sözləri "**qida məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi,**" sözləri ilə əvəz edilmişdir.

[13] 31 avqust 2021-ci il tarixli **23** nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202108310023, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 sentyabr 2021-ci il)** ilə "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida təhlükəsizliyi şöbəsinin Əsasnaməsi"nə yeni məzmunda 3.0.21-1-ci yarımbənd əlavə olunmuşdur.

[14] 16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü il)** ilə "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida təhlükəsizliyi şöbəsinin Əsasnaməsi"nin 4.0.2-ci yarımbənddə "**aparılmasında**" sözündən sonra "**iştirak etmək**" sözləri əlavə edilmişdir.

[15] 16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü il)** ilə "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida zəncirinə nəzarət və regional bölmələrlə iş şöbəsinin Əsasnaməsi"nin adında və 1.1-ci bənddə "**və regional bölmələrlə iş**" sözləri çıxarılmışdır.

[16] 31 avqust 2021-ci il tarixli **23** nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202108310023, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 15 sentyabr 2021-ci il)** ilə "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida zəncirinə nəzarət və regional bölmələrlə iş şöbəsinin Əsasnaməsi"nin 2.0.1-ci yarımbənddə "**dövriyyəsi**" sözündən sonra "**(idxal-ixrac əməliyyatları istisna olmaqla)**" sözləri əlavə edilmişdir, "**bütün**" sözü "**müvafiq**" sözü ilə əvəz edilmişdir.
16 aprel 2024-cü il tarixli **45** nömrəli Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202404160045, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 aprel 2024-cü il)** ilə "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Qida zəncirinə nəzarət və regional bölmələrlə iş şöbəsinin Əsasnaməsi"nin 2.0.1-ci yarımbənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

